Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Mətbuat tariximizin orijinal siması

## "Molla Nəsrəddin"çi publisist Hüseyn Minasazov mətbuata "Kaspi"dən gəlmişdi

**Ədəbiyyatşünas və mətbuatşünas alim, filologiya elmləri doktoru, professor Şamil Qurbanov yazırdı: "Hüseyn Minasazov XX əsr mətbuatımızın tarixində xüsusi mövqe tutan orijinal simalardandır. "Molla Nəsrəddin"çi publisist Hüseyn Minasazov mətbuata "Kaspi"dən gəlmiş, mətbu aləminə ilk dəfə 1902-ci ildə qədəm qoyan Hüseyn Minasazov əvvəl "Kaspi"də korrektor işləmişdir".**

Hüseyn Baxşəli oğlu Minasazov 1881-ci ildə Borçalının Sarvan kəndində anadan olub. Atası rus, fars və ərəb dillərini mükəmməl bildiyi üçün Hüseynə ilk dəfə yazıb-oxumağı da özü oyrədir.

1899-cu ildə Qori Müəllimlər Seminariyasını bitirən Hüseyn cəmi bir neçə il müəllim işləyib. Tədqiqatçı alim Əziz Mirəhmədov yazır: "...məktəbin müdiri ilə ixtilafı nəticəsində müəllimlikdən əl çəkməli olan Hüseyn ömrünü mətbuata bağlayır. İlk olaraq 1902-ci ildə Bakıda "Kaspi" qəzetinin redaksiyasında korrektor kimi işə düzəlir. Burada H.Zərdabi və Ə.Ağaoğlu kimi ziyalılarla ünsiyyətdə olan Hüseyn sonralar əsasən rusdilli mətbuat orqanlarında çap edilir. 1902-04-cü illərdə onun "Kaspi"də əsasən kiçik hekayələri çap edilib. Bunlar arasında "İnsan", "Oğul", "Olmuş hadisə" adlı hekayələri dil-üslub baxımından da maraqlı və sadədir".

1905-ci il də Hüseyn yenidən üz tutur Tiflisə. 1907-ci ildə Tiflis Baş Mətbuat İdarəsinə ərizə ilə müraciət edərək "Oqni" adlı rus dilində həftəlik ədəbi-bədii jurnal nəşr etməyə icazə alır. On altı səhifədən ibarət olan bu jurnalın ilk sayı 1907-ci ilin 14 oktyabrında işıq üzü görür.

Tədqiqatçı alim Ə.Mirəhmədovun yazdığına görə, "Oqni" jurnalı 1908-ci ildə gürcü yazarı P.S.Nasidze tərəfindən Tiflisdə nəşr edilib. Professor Ş.Qurbanovun və digər tədqiqatçıların əsərlərindən isə belə aydın olur ki, "Oqni" H.Minasazovun rəhbərliyi ilə çapa başlayıb. Jurnalın əsas müəllifləri gürcü və azərbaycanlı publisistlər olub. Tərəqqipərvər ideyaların təbliğində mühüm rol oynayan jurnalı tədqiqatçı alimlər "yatmış düşüncələri oyadan" mətbu orqanı adlandırırdılar. Maraqlısı odur ki, Hüseynin rəhbərlik etdiyi "Oqni" jurnalı rus ədəbi ictimaiyyətinin də diqqətini cəlb etmişdir. "Severnıye mısli", "Odesskoye obozreniye" və "Kaspi" kimi qəzetlərdə "Oqni"nin fəaliyyəti yüksək qiymətləndirilirdi. Jurnalda əsas məqalələr Hüseyn Minasazova məxsusdur və əksəriyyəti də dil, qadın azadlığı mövzularına həsr edilib.



"Müsəlman qadını son nəfəsdə" adlı məqaləsində: "Nə qədər ki qadın məsələsi həll olunmayıb, mədəniyyətdən, tərəqqidən danışmağa dəyməz" - deyərək kəskin şəkildə fikrini bildirən publisist bu məsələdə tamamilə mollanəsrəddinçi yoldaşları ilə həmfikir idi. O da yaxından dostluq etdiyi Mirzə Cəlil və Ömər Faiq Nemanzadə kimi qadın azadlığı məsələsini kəskin və ciddi şəkildə qoyaraq, ziyalıların daha mübariz olmasını tələb edirdi. Heç də təsadüfü deyil ki, "Molla Nəsrəddin"in 19 may 1907-ci il tarixli sayında çap olunan məqaləsində "Mollanın müsəlman qadınının azadlığı uğrundakı çıxışları əsl qəhrəmanlıqdır" deyə jurnalı alqışlayırdı.

Əslində o zaman təkcə mollanəsrəddinçilər deyil, bütün mətbu orqanlarımız, publisistlərimiz bu mövzuya daha çox önəm verirdilər. Sadəcə, mollanəsrəddinçilər daha qətiyyətli idilər.

H.Minasazov da Tiflisdə təkcə "Oqni" jurnalı ilə kifayətlənmədi. O, həm də yaxından əməkdaşlıq etdiyi "Zakavkazye" qəzetində də bu mövzunu davam etdirib. Qəzetin 12 sentyabr 1910-cu il tarixli sayında yazırdı: "...mən təsəvvür edə bilmirəm ki, qadınların köləliyi və cəhaləti ilə yanaşı, mədəni inkişaf da mümkün olsun. Çünki qadın anadır, o, tərbiyə verir".

Tədqiqatçı alim, professor Ş.Qurbanovun təbirincə desək, "...yazmaq xatirinə yazmayan" H.Minasazov həm də mədəni-ictimai hadisələrin dəstəkçisi idi. Bu haqda tədqiqatçı alim və bir müddət Tiflisdə H.Minasazovla yaxından dostluq edən Əziz Şərifin "Keçmiş günlərdən" əsərində yetərincə məlumat verilib. Əziz Şərif Tiflisdə "Artistlər" cəmiyyətinin fəaliyyətində, Tiflis ədəbi mühitinin inkişafında H.Minasazovun böyük rol oynadığını dönə-dönə qeyd edirdi: "1910-cu ilin dekabrında Tiflisdə çalışan artistlər Zubalovun camaat evində "Müsəlman dram cəmiyyəti" adlı bir təşkilat yaradıb, onun nizamnaməsini rəsmi təsdiq etdirməyə müvafiq olmuşdular. 1912-ci ildə Tiflisdə "Müsəlman auditoriyası"nın rəsmi açılışı oldu. Mən tez-tez bura gəlirdim. Orada İsmayıl Həqqi, Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev, Məmmədəli Sidqi və Hüseyn Minasazovla görüşürdüm. Çətinliklərə baxmayaraq, onlar çox həvəslə işləyirdilər. Hüseyn həm məqalələr yazır, həm də teatrın işlərində yaxından kömək edirdi. O, 1912-ci ildə M.F.Axundzadənin yubileyinin Tiflisdə keçirilməsində çox yaxından kömək etdi".

Teatrı həyat məktəbi adlandıran publisist onun inkişafı üçün əlindən gələni əsirgəmirdi. Ədəbi-tənqidi məqalələr yazır, yubileylərin keçirilməsi, tamaşaların qoyulmasında yaxından iştirak edirdi. Çünki Hüseyn milli mədəniyyətimizi, onun naliyyətlərini çox gözəl duyan, ona qayğı və milli qürurla yanaşan bir qələm əhli idi.

M.Ə.Sabiri "Azərbaycan poeziyasında yeni ədəbi məktəbin banisi" adlandıran publisist M.F.Axundzadəni rus yazarı Qoqolla müqayisə edərək onun yaradıcılığını həyat güzgüsü adlandırır və bizə miras qoyub getdiyi ədəbi-bədii irsə qayğı ilə yanaşmağımızı arzulayırdı. Onu da qeyd edim ki, M.Cəlilin "Ölülər"i haqqında ilk elmi mülahizələri H.Minasazov söyləyib. O, gənc Üzeyir bəyi "Azərbaycan xalqının misilsiz milli naliyyətlərinin bilicisi" adlandırırdı.

1907-ci ilin payızında H.Minasazov "Zakavkazye" qəzetinin xüsusi müxbiri kimi Təbrizə yola düşür. 1908-ci ini iyun ayına kimi "Təbrizdən məktublar" rubrikası altında publisistik məqalələri ilə qəzetdə çıxış edir. Bu məqalələr əsasən İran inqilabına və qadın azadlığına həsr edilən yazılardır. İnqilaba həsr etdiyi məqalələrin məzmunundan hiss edilir ki, o, bir publisist kimi Səttarxan hərəkatına yüksək qiymət verir. O, inqilabın nəticələrini işıqlı gələcəyə aparan bir yol adlandırırdı.



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

H.Minasazov 1908-ci ilin payızından həmin qəzetin müxbiri kimi Peterburqa ezam olunur.

Ə.Mirəhmədovun tədqiqatlarına əsasən, H.Minasazov 300-dən artıq publisistik məqalənin müəllifidir. Bu məqalələrin arasında milli məsələyə həsr edilənlər üstünlük təşkil edir. Publisist haqlı olaraq bu məsələdə dövlətin və onun çinovniklərinin maraqlı olduğunu qeyd edirdi.

1905-07-ci illər hadisələri Azərbaycan ziyalılarını da siyasi mübarizələrə istiqamətləndirdi və hökuməti xalqın azadlığı uğrunda yeni islahatlar aparmağa vadar etdi. Beləliklə, 20-ci yüzilliyin əvvəllərində baş verən siyasi hadisələrin təsiri nəticəsində Azərbaycanda ictimai fikir yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Mədəni tərəqqiyə təşəbbüs edən ziyalılarımız "Məqsədimiz yatmış şüurları oyatmaqdır" deyərək xalqın mədəni inkişafı ilə bağlı hər bir yeniliyi ehtirasla təbliğ edirdilər. Onların arasında "Müasir dövr xoşbəxt gələcəyə gedən yolları axtarmaq dövrüdür" - deyə bütün gənc qələm yoldaşlarını mübarizəyə səsləyən H.Minasazov da var idi.

Əsasən rusdilli mətbuatda çap olunan H.Minasazov sovet hakimiyyətinin ilk illərində Gürcüstanda yaşayıb. 1921-1922-ci illərdə Sovet Gürcüstanı İnqilab Komitəsi nəzdində yaradılmış Müsəlman İşləri Şurasında işləmişdir. Şuranın sədri Ö.F.Nemanzadə, katibi isə H.Minasazov olmuşdur. Sonra H.Minasazov Bakıya gəlir. Bakıda ilk olaraq Ali Sovetdə tərcüməçi, daha sonra isə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunda elmi işçi vəzifəsində işləyir.

Mirzə Cəlil şəxsiyyətinə və yaradıcılığına çox böyük hörmət və ehtiramla yanaşan H.Minasazov elə Mirzə Cəlillə eyni gündə - 1932-ci ilin 4 yanvarında vəfat edir. Onu Mirzənin məzarının yanında dəfn edirlər.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*

# "Professorlar Klubu"

## Klub Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Şurasının qərarı ilə təsis edilib

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Şurasının qərarı ilə UNEC-də "Professorlar Klubu" təsis edilib.**

**UNEC-dən bildirilib ki, "Professorlar Klubu"nun yaradılmasında məqsəd professor və elmlər doktorlarının intellektual potensialından istifadə edərək müasir cəmiyyətdə qabaqcıl ideyaları aşılamaqdır. Kluba üzv olanlar bilikləri, bacarıqları və həyat təcrübələrini bölüşmək üçün qeyri-formal şəraitdə, fəal və müxtəlif zövqlərə cavab verən maraqlı istirahət zamanı ziyalı mühitində səmimi ünsiyyət qura biləcək.**

Maliyyə və maliyyə institutları kafedrasının müdiri, iqtisad elmləri doktoru Əvəz Ələkbərovun təşəbbüsü ilə yaradılan klub Azərbaycanın və xarici ölkələrin professorlarının, elmlər doktorlarının könüllülük və bərabərlik əsasında yaradılan birliyi funksiyasını öz üzərinə götürür. Klassik və müasir elmlərin nailiyyətləri ilə bağlı fikir mübadiləsi üçün toplantıların təşkili, klub üzvlərinin beynəlxalq elmi cəmiyyətlərə inteqrasiyasına nail olmaq, istedadlı gənc alimlərə hərtərəfli dəstək olmaq, respublikada və xaricdə müxtəlif elmi, mədəni-kütləvi tədbirlərdə təmsil olunmaq klubun fəaliyyət istiqamətində yer alıb.

Klubun idarəetmə orqanında Rəyasət Heyəti və sədr yer alıb. Həmçinin üzvlük könüllüdür və nəzərdə tutulan məqsədlərə həmrəy olan hər bir professor və elmlər doktorları kluba qoşula bilər.